# Elmə və elmi məktəbin yaradılmasına həsr olunmuş ömür yolu

**Tanınmış kimyaçı alim Nəcəf Tofiq oğlu Qəhrəmanov 1946-cı ildə yanvar ayının 26-da Azərbaycan Respublikası Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.**

Professor Nəcəf Qəhrəmanov 750-dən çox elmi əsərin, o cümlədən 7 monoqrafiyanın, 50 patentin və müəlliflik şəhadətnaməsinin müəllifidir.

Bu gün Azərbaycan elmi ictimaiyyəti, eləcə də yetirmələri görkəmli alim, pedaqoji ustalığı ilə seçilən professor Nəcəf Qəhrəmanovun 80 illik yubileyini böyük hörmət və ehtiramla qeyd edir. Elmə həsr olunmuş ömür yolu, yaratdığı elmi məktəb və yetişdirdiyi mütəxəssislər onu ölkəmizin sayılıb-seçilən ziyalılarından birinə çevirib. O, kimya elminin makromolekullar kimyası, ən əsası kompozit materialların kimyası və texnologiyası sahələrində apardığı tədqiqatlarla yalnız nəzəri istiqamətləri zənginləşdirməmiş, həm də tətbiqi elmin inkişafına ciddi töhfələr vermişdir.

Mənim professor Nəcəf Qəhrəmanovla yolum 2015-ci ildə Polimer Materialları İnstitutunda kəsişdi. Həmin ildən etibarən onun rəhbərliyi altında dissertasiya işi üzərində çalışmağa başladım və elmi fəaliyyətimdə yeni bir mərhələ açıldı. İlk gündən Nəcəf müəllimin elmi dəqiqliyi, məsuliyyətli yanaşması və tələbkar prinsipləri məni daha ciddi işləməyə, tədqiqatın mahiyyətinə daha dərindən nüfuz etməyə sövq etdi. Bu əməkdaşlıq mənim üçün təkcə elmi proses deyildi, həm də düşüncə tərzimi formalaşdıran, elmi baxışımı yenidən qurmağa vadar edən böyük bir məktəb idi. Onunla apardığımız hər müzakirə araşdırmanı yalnız laboratoriya divarları arasında deyil, həm də geniş dünyagörüşü və analitik təfəkkür prizmasından dəyərləndirməyi öyrədirdi.

Professor Qəhrəmanovun rəhbərliyi altında aparılan tədqiqat yalnız dissertasiya yazmaq deyil, hər addımda analitik düşünməyi, səbəb-nəticə əlaqələrini düzgün qurmağı, elmi yanaşmada dürüst və obyektiv olmağı öyrədən bir təcrübə idi. Yeri gəldikcə tələbkar, yeri gəldikcə qayğıkeş olan bu münasibət mənim üçün böyük təcrübə və dəyər oldu. Professor Nəcəf Qəhrəmanovun rəhbərlik üslubu tələbəni sıxmadan, amma məsuliyyət hissi aşılamaq, istiqamət vermək, amma sərbəst düşüncəni dəstəkləmək, hər addımı izah etmək deyil, araşdırmağa sövq etmək üzərində qurulub. Bu, bir çox alimdə görmədiyim və dərin qiymətləndirdiyim unikal yanaşmadır.



O, elm yoluna qədəm qoyan hər kəsə yalnız laboratoriyada eksperiment aparmağı deyil, gördüyü hər bir faktı, hər bir ideyanı elmi baxımdan doğru, dəqiq və aydın şəkildə ifadə etməyi öyrədirdi. Nəcəf müəllim tez-tez öz elmi rəhbərindən danışardı. Elmi rəhbəri bir dəfə dərs zamanı stolun üstünə adi bir qab qoyub tələbələrdən onu sözlə təsvir etməyi xahiş etmişdi. İlk baxışdan çox sadə görünən bu tapşırıq əslində elmin ən dərin prinsiplərindən birinə işarə edirdi. "Alim təkcə araşdırma aparmamalıdır; o, gördüyünü və düşündüyünü dəqiq ifadə etməyi bacarmalıdır", - deyə Nəcəf müəllim bu məşhur nümunəni hər dəfə xüsusi vurğulayardı. Bu nümunə ilə o, bizə elmi təfəkkürün ayrılmaz hissəsi olan müşahidə, təsvir və analitik ifadə qabiliyyətinin əhəmiyyətini aşılayırdı. Onun fikrincə, faktı əvvəlcə görmək, sonra mahiyyətini dərk etmək, sonda isə elmi dillə düzgün təqdim etmək əsl tədqiqatçının yol xəritəsidir. Bu sadə görünən tapşırıq, əslində, onun pedaqoji yanaşmasının mahiyyətini açırdı: əvvəl müşahidə etmək, sonra dərk etmək, sonda isə elmi dillə düzgün təqdim etmək. Bu yolla o, bizə elmi təfəkkürün əsasında duran müşahidə mədəniyyətini, analitik düşüncəni və elmi ifadə dəqiqliyini aşılamağa çalışırdı.

Professor Nəcəf Qəhrəmanovun geniş dünyagörüşü, polimer kimyası sahəsində fundamental bilikləri və analitik düşüncə tərzi mənim elmi baxışımın formalaşmasında əvəzsiz rol oynadı. Onun rəhbərliyi ilə apardığım tədqiqat işi yalnız dissertasiya müdafiəsi ilə məhdudlaşmadı; bu proses mənə elmə doğru düzgün və nizamlı yanaşma, tədqiqat mədəniyyəti və elmi səmimiyyət kimi vacib keyfiyyətləri öyrətdi. Bu gün institutda onunla birgə çalışmaq mənim üçün həm qürurdur, həm də elmi yolumda davamlı motivasiya mənbəyidir.

Onunla bir gün işləmək belə böyük məktəbdir; on il işləmək isə insanın elmə olan baxışını tamamilə dəyişir. Professorun elmi müzakirələrdə təmkinli və dəqiq mövqeyi, gənc tədqiqatçılara açıq və dəstəkləyici münasibəti, elmə olan sədaqəti onu yalnız böyük alim deyil, həm də böyük insan kimi təqdim edir. Sözün əsl mənasında, o, elmi və ziyalılığı öz şəxsiyyətində birləşdirən simalardandır.

Hörmətli elmi rəhbərim, 80 illik yubileyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizin elmi rəhbərliyiniz altında keçirdiyim illər elmi fəaliyyətimin ən dəyərli mərhələlərindən biri oldu. Sizin "pis nəticə də nəticədir" cümləniz təkcə elmi fəaliyyətimə deyil, bütün həyat yanaşmama təsir edən bir mesaj oldu.

Bu gün Sizinlə eyni institutda, eyni məqsəd uğrunda çalışmaq mənim üçün böyük fəxrdir.

Sizə möhkəm can sağlığı, uzun ömür və elmi fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Bu yubiley həm Sizin keçdiyiniz ömür yolunun, həm də elmi irsinizin bayramıdır.

**Nüşabə ARZUMANOVA**
**kimya üzrə fəlsəfə doktoru, dosent**

Elm .- 2026.- 16 yanvar (№ 2).- S.7.